2 Tari
Kərəm
**("Qarabağ şikəstəsi" üstündə) Gəzib-gəzib şəhərləri, kəndləri,
Axır gəlib sənə yetişdim Əsli!
Unutmuşam cəfaları, dərdləri,
Axır gəlib sənə yetişdim, Əsli!
V-ni I
V-ni II
V-le
Celli
Bassi
pizz.




118
Picc.
2 Fl.
2 Ob.
2 Oboi
2 Cl.
2 F-ni
4 C-ni
2 T-be
a2 con sord
3 T-ne e Tuba
T-ni
T-ro
T-no
Cassa
2 Tari
Əsli
**Dustaq kimi gəlib bu evdə,
Söylər idim: Kərəm, Kərəm, Kərəm, gəl!
Bilməz idim çarə nədi bu dərdə,
Söylər idim: Kərəm, Kərəm, Kərəm, gəl!
V-ni I
V-ni II
V-le
Celli
Bassi
pizz.


119
Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-tti
4 C-ni
2 T-be
3 T-ne e Tuba
T-ni
T-ro
T-no
Cassa
2 Tari
Kərəm
**Ağlar goyub ata ilə ananı,
İncitmişəm hər bir canı yananı.
Ötürmüşəm Məcnunu və Sənəmı,
Axır gəlib sənə yetişdim, Əsli!
V-ni I
V-ni II
V-le
Celli
Bassi




120
Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-tti
4 C-ni
2 T-be
3 T-ne e Tuba
T-ni
T-ro
T-no
Cassa
2 Tari
Əsli
**("Ərəq" üstündə) Keşiş babam bağlayıbdı hər yanı,
Yanmaz imiş onun mənə beç canı.
Gözüm görmür bu işıqlı dünyanı,
Çıx gəl bəri, Kərəm, Kərəm, Kərəm, gəl!
V-ni I
V-ni II
V-le
Celli
Bassi
pizz.
arco






*Əsli ipək nərdivanı aşağı atır, Kərəm nərdivana çıxıb, Əsli dəxi eyvandan bədənini aşağı sallayıb, ikisi bir-biri ilə görüşməkdə ikən Qara Keşiş bazardan qayıdır və əhvalatı bu halda görüb qışqırır.*

*(Dialoq nitq ilə söylənilir)*

Qara Keşiş – Ay haray!.. Evimə oğru gəlibdir, ay haray!.. Yığılın buraya!

*(Bu qışqırığa iki nəfər zəbtiyyə gəlib Kərəmi və Sofini tuturlar, camaat dəxi evlərindən bayıra çıxıb, əllərində fanus olaraq bu əhvalatı görürlər.)*

Tanıdım, odur. Padşahın oğlu Əhməd Mirzədir... Yenə də gəlib məni tapdı.

*(Bu halda Hələb paşası daxil olur, yanında iki nəfər zəbtiyyə.)*

Paşa – Bu nə yığıncaqdı burda? Nə olubdu? Geri çəkilin.

Qara Keşiş – Paşam, bu iki şəxs mənim evimi yarmaq istərkən gəlib üstünə çıxmışam.

Paşa – Nakəslər! Bu şəhəri sahibsizmi zənn etdiniz? Nə cürət edib quldurluğa gəlirsiniz?
Aparın bunları həbs edin!

Kərəm – Paşam, izin ver, bir neçə kəlmə sözüm var.

Paşa – Nə sözdür, de görək.


№39
Moderato
Picc.
2 Fl.
a2
ff
2 Ob.
2 Cl.
2 F-ti
4 C-ni
2 T-be
3 T-ne e Tuba
T-ni
T-ro
T-no
Cassa
2 Tari
Moderato
V-ni I
V-ni II
V-le
Celli
Bassi
arco
pizz.




121
Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-ti
4 C-ni
2 T-be
3 T-ne e Tuba
T-ni
T-ro
T-no
Cassa
2 Tari
Karam
**("Şikasteyi-fars" üstündə) Yazıq ömrüm qərib eldə keçirdim,
Heç əhvalım bildirən yox, bilən yox.
Getdi fürsət, əldə ikən qaçırdım,
Qərib qaldım, güldürən yox, gülən yox.
121
V-ni I
V-ni II
V-le
Celli
Bassi
arco


122
Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-ni
4 C-ni
2 T-be
3 T-ne e Tuba
T-ni
T-ro
T-no
Cassa
2 Tari
Kərəm
**("Bayatı-Qacar" üstündə) Əlimdən aldırdım nazlı sonamı,
Tərk eylədim atamı, həm anamı.
Döyə-döyə göngöy etdim sinəmi,
Xəncər alıb dəldirən yox, dələn yox.
V-ni I
V-ni II
V-le
Celli
Bassi
pizz.




Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-ni
4 C-ni
2 T-be
3 T-ne e Tuba
T-ni
T-ro
T-no
Cassa
2 Tari
Kərəm
**Mən Kərəməm, ah çəkib, ağlaram,
Dərd bilənin ürəyini dağlaram.
Kimi deyib, kimə ümüd bağlaram.
Göz yaçımı sildirən yox, silən yox.
(nitq ilə) İndi buyur, məni aparıb həbs etsinlər.
V-ni I
V-ni II
V-le
Celli
Bassi
pizz.


123
Allegro
Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-tti
4 C-ni
2 T-be
3 T-ne e Tuba
T-ni
T-ro
T-no
Cassa
a2
2 Tari
123
Allegro
V-ni I
V-ni II
V-le
arco
Celli
arco
Bassi




Picc.
2 Fl.
2 Ob.
a2
2 Cl.
a2
2 F-tti
4 C-ni
2 T-be
a2
3 T-ne e Tuba
T-ni
T-ro
T-no
Cassa
2 Tari
a2
V-ni I
V-ni II
V-le
Celli
Bassi

# VI ŞƏKİL

## №40

*Hələb paşasının imarətində vaqe olur. Paşa bir taxt üzərində əyləşib, meypuş qəlyan çəkir.*
*Onun qabağında bir neçə qız oynayır. Bir qədərdən sonra nökər daxil olur, qızlar oyunu kəsib, bir kənarda dayanırlar.*







127
Picc.
2 Fl.
solo I
2 Ob.
2 Cl.
2 F-ni
4 C-ni
2 T-be
3 T-ne e Tuba
T-ni
T-ro
T-no
Cassa
2 Tari
127
pizz.
V-ni I
V-ni II
V-le
Celli
Bassi




128
129
Picc.
2 Fl.
a2
2 Ob.
2 Cl.
2 F-ni
4 C-ni
2 T-be
3 T-ne e Tuba
T-ni
T-ro
T-no
Cassa
2 Tari
128
129
arco
V-ni I
V-ni II
V-le
Celli
Bassi


130
Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-ni
4 C-ni
2 T-be
3 T-ne e Tuba
T-ni
T-ro
T-no
Cassa
2 Tam
130
V-ni I
V-ni II
V-le
Celli
Bassi




131
Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-ni
4 C-ni
2 T-be
3 T-ne e Tuba
T-ni
T-ro
T-no
Cassa
2 Tam
131
V-ni I
V-ni II
V-le
Celli
Bassi

*(Dialoq nitq ilə söylənilir)*

N ö k ə r – Paşam, bir dəstə camaat hüzurunuza izin istəyir.

P a ş a – Burax gəlsinlər.

*Camaat və Şeyx Nurani daxil olurlar.*

№41




133
Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-tti
4 C-ni
2 T-be
3 T-ne e Tuba
T-ni
T-ro
T-no
Cassa
Ey Pa - şam, Ey Pa - şam, Kə-rə-mi et a - zad! a - zad, a - zad et!
2 Tari
133
V-ni I
V-ni II
V-le
Celli
Bassi




134
Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-tti
4 C-ni
2 T-be
3 T-ne e Tuba
T-ni
T-ro
T-no
Cassa
A - şiq ol - muş ke-şiş qı-zı-na a - şiq ol - muş ke-şiş qı-zı-na ol a - şiq - dir. dir.
2 Tari
134
V-ni I
V-ni II
V-le
Celli
Bassi

Paşa (nitq ilə) – Əmr edirəm, gedib dünənki məhbusu buraya gətirsinlər.

**"Osmanlı" ifa olunur***

Şeyx Nurani – Aşiqə etmə əziyyət, ey paşam,
Aşiqin üftadədir, üftadədir, üftadədir.
İstəsə aşiq əgər öz canını,
Yar üçün qurban edə, amadədir.

* Dirijorun işarəsi ilə iştirakçılar tarın müşayiəti ilə muğam parçalarını ifa edirlər.



*Camaat oxuyub gedir. Kərəmi gətirirlər, əllərində zəncir vardır.*

Paşa (nitq ilə) – Ey şəxs! Sən kimsən və nəçisən? Söylə!

№42




136
Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-ni
4 C-ni
2 T-be
3 T-ni e Tuba
T-ni
T-ro
T-no
Cassa
2 Tari
Kərəm
**("Bayatı-Qacar" üstündə) Mən Kərəməm, İsfahandır elimiz,
Ördək uçdu, viran qaldı gölümüz.
Qoy olsun, necə olur halımız,
Qurban olsun yar yolunda canımız.
136
V-ni I
V-ni II
V-le
Celli
Bassi
arco
pizz.




137
Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-ni
4 C-ni
2 T-be
3 T-ni e Tuba
T-ni
T-ro
T-no
Cassa
2 Tari
Kərəm
**Ayrı düşdüm vətənimdən, elimdən,
Gör kim, nələr çəkdim eşqin əlindən.
Hər şəhərdə xəbər aldım gələndən,
Hələbdədir Əsli, mənə dedilər.
137
V-ni I
V-ni II
V-le
Celli
Bassi
arco




**Dərdimi duyanlar cümlə ağladı,
Bəylər tutdu qollarımı bağladı,
Ürəyimi eşq oduna dağladı,
Burda mənə quldur adı verdilər.






**Dərdli Kərəm qoydu başın qəzaya,
Yar ilə getmədi xəlvət odaya.
Çox şükürlər olsun barı-xudaya,
Kəsmədilər ağzımdakı dilimi.

*(Dialoq nitq ilə söylənilir)*

Paşa – Ey oğlan! Deməli, sən Qara Keşişin qızına aşiqsən. Adın Kərəm, sənətin aşiqlikdir, özün də İsfahan şahının oğlusan, öylədirmi?

Kərəm – Öylədir, paşam.

Paşa – Əmr edirəm! Qara Keşiş və qızı buraya gəlsinlər. Açın Kərəmin və dostunun qollarını. Deməli, sən şah oglusan, özün də şahzadəsən. Çox gözəl, gəl əyləş. Sən gəl bu fikirdən vaz keç, mən sənə bu şəhərdə hansı gözəli desən alaram.

Kərəm – Paşam, bizim vilayətimizdə gözəllər çoxdu. Amma mən ürək sevəni istərəm, başqa məramım yoxdu.

*Bu halda Qara Keşiş və Əsli daxil olurlar. Əsli və Kərəm bir-birini görcək bihuş olurlar.*

Paşa – Qara Keşiş, bu oğlan quldur deyilmiş, o, sənin qızına aşiqdir. Gəl sən ona rəhm elə, qızını ver ona getsin. Nə qədər dövlət istəsən, sənə verərəm.

Qara Keşiş – Əgər mən dövlət sevən olsaydım, İsfahan padşahının sözünü rədd etməzdim. Mən qızımı və onun namusunu hər şeydən üstün tuturam.

Paşa – Sən bilirsən ki, bu oğlan sənin qızına aşiqdir?

Qara Keşiş – Bilirəm.

Paşa – Onu da bilirsən ki, iki aşiqi məramə yetirmək nə qədər savabdır?

Qara Keşiş – Onu da bilirəm.

Paşa – Bəs onda niyə mane olursan?

Qara Keşiş – Bu, mənim atalıq haqqımdı.

Paşa – Keşiş, sən gəl bu işə razı ol, yoxsa...

Qara Keşiş – Paşam, İran vilayətində mənim hörmətim padşah hörmətinə bərabər idi. Ancaq mən oradan qaçıb, gəlib sənin kölgənə qısıldım. Hərgah sən də məni incitmək istəsən, onda mən başqa bir şəhər hakiminə pənah apararam.

Paşa – Ey aşiq, görürsən ki, mümkün deyil, get özünə başqa yar axtar.



Paşa (nitq ilə) – Qoy indi qızın özündən soruşum, əgər qız söyləsə ki, Kərəmə aşiqəm, ona ərə getmək istəyirəm, onda gərək Qara Keşişin heç bir sözü olmasın, olarsa mən ona cəza verdirərəm. Yaxın gəl, qızım, söylə görüm sən Kərəmə aşiqsən, ona ərə getmək istəyirsənmi?




139
Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-ni
4 C-ni
2 T-be
3 T-ni e Tuba
T-ni
T-ro
T-no
Cassa
2 Tari
Əsli
**("Mühərriqə" üstündə)
Kərəm mənə, mən Kərəmə aşiqik,
Ver Kərəmə məni, paşam, rəhm elə.
Hər ikimiz aşiqliyə layiqik,
Ver Kərəmə məni, paşam, rəhm elə
V-ni I
V-ni II
V-le
Celli
Bassi




Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-ni
4 C-ni
a2
2 T-be
3 T-ni e Tuba
T-ni
T-ro
T-no
Cassa
2 Tari
Əsli
**("Əraq" üstündə)
Qorxum yoxdu keşiş babamdan mənim,
Dözə bilməm, təngə gəlibdir canım.
Mənim yarım ancaq Kərəmdir, Kərəm,
Ver Kərəmə məni, paşam, rəhm elə.
V-ni I
V-ni II
V-le
Celli
Bassi


№45
Andante
Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-ni
4 C-ni
2 T-be
3 T-ne e Tuba
T-ni
T-ro
P-tti
Cassa
Choir
Ke - şiş ra - zı ol bu i - şə
Keşiş
Ol - mam! ol - mam!
2 Tari
Andante
V-ni I
V-ni II
V-le
Celli
Bassi




140
141
Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-ni
4 C-ni
2 T-be
3 T-ne e Tuba
T-ni
T-ro
P-tti
Cassa
Choir
Ke - şiş ra - zı ol bu i - şə
Paşa
Ra - zı ol! Ra - zı ol!
Əs - li - ni ver
2 Tari
V-ni I
V-ni II
V-le
Celli
Bassi


142
Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-tti
4 C-ni
2 T-be
3 T-ne e Tuba
T-ni
T-ro
P-tti
Cassa
Keşiş
Choir
Kə - rə - mə
Ver- məm!
ver- məm!
Əs - li - ni ver
Kə - rə - mə
2 Tari
142
V-ni I
V-ni II
V-le
Celli
Bassi




143
Picc.
2 Fl.
2 Ob.
2 Cl.
2 F-tti
4 C-ni
2 T-be
3 T-ne e Tuba
T-ni
T-ro
P-tti
Cassa
Paşa
Keşiş
Paşa
Ra - zı ol!
Ra - zı ol!
Ol - mam!
Ol - mam!
Ol - mam!
Ol - mam!
Ver!
2 Tari
143
V-ni I
V-ni II
V-le
Celli
Bassi

*(Dialoq nitq ilə söylənilir)*

Qara Keşiş – Ver, ver Əslini Kərəmə. Əgər onlar həqiqi aşiqdirlərsə, gərək bu dünyada kam almasınlar.

Paşa – Aşiq Kərəm, al, bu da sənin yarın.

*Əsli ağlayır, Kərəm hövlnak bir haldadır ki, guya canı odlanır. Əsliyə tərəf əllərini uzadıb oxuyur.*

№46








**№47**

*Kərəm oxuyarkən hər tərəfdən alov çıxıb, odlanıb yanır.*
*Əsli də əlindəki xəncərini çıxarıb, sinəsinə çaxır və yıxılıb ölür.*
*Bütün məclis əhli mat və məəttəl qalıb, kəmali-heyrətdə ikən pərdə yavaş-yavaş enir.*






***SON***

# ƏSLİ və KƏRƏM

## Libretto

## İŞTİRAK EDƏNLƏR:

| | |
|---|---|
| İsfahan padşahı | *50 yaşında* |
| Kərəm (Əhməd Mirzə) | *onun oğlu, 25 yaşında* |
| Keşiş, padşahın xəzinədarı | *50 yaşında* |
| Əsli (Qara Sultan) | *onun qızı, 15 yaşında* |
| Sofi, Kərəmin yoldaşı | *30 yaşında* |
| 5 nəfər əyan | |
| Hələb paşası | *45 yaşında* |
| 2 nəfər zəbtiyyə | |
| Şeyx Nurani | *ağsaqqal və ağ geyimli bir şeyx* |
| Səfi | *bir qoca kişi* |

Bəylər, küçə adamları, yol ötən bir dəstə qız və sairə

## BİRİNCİ PƏRDƏ

Zəngidə, padşahın xəzinədarı olan keşiş (Arsen) xanın imarəti həyətində vaqe olur. Həyət gözəl bir bağçadır ki, içində cürbəcür ağaclar və güllər vardır. Sağ tərəfdə keşişin evi görünür, içəri daxil olmaq üçün qapısı vardır. Sol tərəfdə başı qarlı və dumanlı dağlar görünür. Keşişin qızı (Əsli) bağçada bir sərv ağacının dibində oturubdur. Ətrafda keşiş ilə bərabər qızlar və oğlanlar oynayıb gülməkdədirlər. Keşiş qapısının ağzında əyləşib bağçaya tamaşa edir.

Ə s l i (*şahnaz*)

Qəlbimə bir hiss girmişdir, adı bilməm nədir,
Gah acıdır, gah şirindir, heç dadı bilməm nədir.
Bezmişəm ata-anadan, görməyir heç şey gözüm,
Bu pərişan halımın heç illətin bilməm özüm.
Görmüşəm mən bir yuxu, ol yuxuda bir novcavan,
Qədd-qamət sərv tək, gözlər qara, qaşlar kaman.
Sarılıb incə belimdən, bus edər rüxsarımı,
Söyləyir: sevdim səni, tapdım nəhayət yarımı.

Keşiş, qızlar və oğlanlar Əsliyə tərəf gəlib oxuyurlar.

(M u s i q i: təsnif)

Gülüm, söylə sən görək,
Böylə pərişan neçin?

(M u s i q i)

Gülüm, söylə sən görək,
Böylə pərişan neçin?
Bizi eylə hali sən,
Dərdin nədir, dərdin nədir, dərdin nədir?
Hey... tez söylə, tez söylə, tez söylə sən!

(M u s i q i)

Bunca dövlətdən məgər
Razı deyilsən, qızım?

(M u s i q i)

Bunca dövlətdən məgər
Razı deyilsən, qızım?
Bizi eylə hali sən.
Dərdin nədir, dərdin nədir, dərdin nədir?
Hey... tez söylə, tez söylə, tez söylə sən!

Ə s l i (*dilkeş*)

Zərrə qədər dövlətin yoxdur gözümdə hörməti,
Anlamam, billah, nədir dövlətlə dünya ləzzəti?

Eşqdir dərdim mənim, aşiq olub bir oğlana,
Hazıram qurban edəm öz canımı mən ol cana.

K e ş i ş

Sən nəsən, aşiq nədir?
Heç həya etməzmisən?!
Kimdir ol oğlan belə?
Kim dəli etmiş səni?
(*nəvazişlə*)
Gəl, qızım, söylə görüm:
Kim edib aşiq səni?

Ə s l i (*şahnaz*)

Görmüşəm mən bir yuxu, ol yuxuda bir növcavan,
Qədd-qamət sərv tək, gözlər qara, qaşlar kaman.
Sarılıb incə belimdən, bus edər rüxsarımı,
Söyləyir: sevdim səni, tapdım nəhayət yarımı.

(M u s i q i)

H a m ı (*təsnif*)

Yuxunun var insana böylə əsəri məgər? (*2 dəfə*)
Yuxu verir insana zövqü səfa, cövrü cəfa,
zövqü səfa,
Hey, sən söylə, sən söylə, sən söylə hey!..
(*bir də təkrar*)

(M u s i q i)

Hamı Əsli ilə durub içəri daxil olurlar. Səhnədə heç kəs qalmır. Bu halda Kərəm ilə Sofi o biri tərəfdən çıxıb bağçaya gəlirlər.

S o f i (*bayatı-Şiraz*)

Sal nəzər, şahzadə, bir bax keşişin bağına,
Həm gülə, həm sünbülə, gendən görünən dağına.

K ə r ə m. Dostum Sofi!

Bu qədər güllər və sünbüllər mənə eşq artırır,
Eşq ilə yanmış çırağa yağ olub da yandırır.

S o f i

Söylə sən, şahzadə, kimdir aşiqin bir dəm mənə,
Bəlkə mən bu yolda göstərrəm ola xidmət sənə.



K ə r ə m

Bir yuxu gördüm, əzizim, bir nəfər nazlı sənəm,
Bus edər hərdən məni, söylər mənə yarın mənəm.
Qaş qara, gözlər qara, baldan şirindir ləbləri,
Qədd-qamət sərvtək, xumardır şux gözləri.
Qönçətək açmış dəhanın, dişləri dürr danəsi,
Olmuşam, Sofi, o gündən ol qızın divanəsi.

Keşiş çıxıb baş əyir.

K e ş i ş (*söz ilə*). Ey şahzadə, sən bizə çox xoş gəlib, səfa gətiribsən! Buyurun bizim xanəmizə!

K ə r ə m. Çox sağ ol, keşiş, çox razıyıq.

Hamısı bərabər içəri girirlər.

(M u s i q i)

Bir qədər sonra Əsli pərişan bir halda evdən çıxır.

Ə s l i (*söz ilə*). Odur... özüdür... yuxumda gördüyüm oğlandır!

(Bayatı-kürd)

Yandırıb-yaxmaqdadır eşq atəşi əndamımı,
Düşmüşəm bir dərdə kim, bilməm özüm əncamımı.
Barı, ilahi, tez yetir gəlsin mənim cananımı,
Ya diriltsin bəndəni, ya kim tez alsın canımı.

Kənarda bir sandalya üzərinə yıxılıb qalır.

(M u s i q i)

Kərəm dəxi içəridən çıxır, bu da pərişan haldadır.

K ə r ə m (*söz ilə*)

O kim idi?.. O qız kim idi?..
Yoxsa mən yenə yuxu gördüm... yuxu...

(M u s i q i: şikəsteyi-fars)

Yenə gördüm surətin ol məhvəşin odlanmışam,
Tazadan eşqə düşüb, suzi-cigərlə yanmışam.
Gəl, gəl, ey dilbər, məni bu şübhədən eylə xilas,
Gördüyüm sənsənmi, yoxsa yuxuya adlanmışam?

O tərəfdən Əsli ayağa durub getmək istərkən bunlar bir-birini görürlər və bir qədər məəttəl qalıb qucaqlaşırlar, bəədə Əsli kənara çəkilir.

Əsli (*söz ilə*). Ah!.. Oğlan, kərəm eylə, bizi görərlər.
Kərəm. Əsli nədir, ey dilbər? (*Buraxmayır.*)
Əsli (*dartınır*). Ah!.. Kərəm eylə, keşiş babam gəlir.
Kərəm. Əsli nədir, gözəlim!
Əsli. Ah!.. Kərəm eylə, qorxuram.
Kərəm. Əsli nədir, qorxma!
Əsli. Yox, oğlan, kərəm eylə, kərəm eylə.
Kərəm. Ey nazlı dilbər, qoy sənin adın Əsli olsun, mənim adım Kərəm.
Əsli. Qoy olsun, ancaq qorxuram, keşiş babam çıxıb bizi görər.
Kərəm. Canım Əsli, bir ləhzə mənimlə otur, səni tapmışam və səndən ayrıla bilmirəm.

(Musiqi)

Əsli (*şikəstə*)

Nə gəzirsən məlul-məlul bu yerdə,
Aman, Kərəm, məni rüsvay eyləmə!
Məni sənə qismət eyləmiş yəzdan,
Aman, Kərəm, məni rüsvay eyləmə!

Kərəm

Doymadım dadlı-dadlı dilindən,
Aman, Əslim, elə sözlər söyləmə!
Gözümü qan bürüdü, qorxuram ölümdən,
Aman, Əslim, elə sözlər söyləmə!

(Musiqi)

Əsli

Heç olurmu buralarda böylə iş,
Keşiş babam duyar, eyləyər təşviş.
Duymamışkən tez olgilən qalx, siviş,
Aman, Kərəm, məni rüsvay eyləmə!

(Musiqi)

Kərəm

Sarılaram incə miyan belindən,
Doymamışam dadlı-dadlı dilindən.
Qorxuram ki, ayrılasan sən məndən,
Aman, Əslim, elə sözlər söyləmə.

(Musiqi)

Əsli (*durur ayağa*)

Ağam Kərəm, paşam Kərəm, xan Kərəm,
Alış Kərəm, tutuş Kərəm, yan Kərəm.



Əsli olsun sənə qurban, can Kərəm,
Aman, Kərəm, məni rüsvay eyləmə!

Keşişin səsi gəlir. Əsli Kərəmə baxa-baxa həsrətlə getməyə məcbur olur.

Kərəm (*segah*)

Gerçək oldu bu yuxum, tapdım məgər xan Əslimi,
Verməsə məgər keşiş, billah ölləm, xan Əslimi.
Ağlımı aldı başımdan səndəki sövdayi-eşq,
Kor olmuş gözlərim, təkcə görər xan Əslimi.

Sofi (*çıxıb Kərəmi axtarır və tapır*). Ey şahzadə, keşiş səndən nigarandır, harada qaldın, gəlmədin.

Kərəm (*segah*)

Tapmışam cananımı, Sofi, mənə rəhm eylə sən,
Noldun, ey birəhm, sən söylə ona, rəhm eyləsin.
Gördüyüm röyadakı dilbər keşişin qızıdır,
Söyləməm, bil kim, bu sirri tək sənə, rəhm eyləsən.

Sofi (*söz ilə*). Yuxuda gördüyün keşişin qızı imiş?
Kərəm. Odur... özüdür.
Sofi. Daha bundan asan bir iş yoxdur. Şah baban əmr edər, keşiş qızını sənə verər. Özü də bu işə çox şükürlər edər, çünki şahzadədən artıq kimə qız vermək olar?
Kərəm. Yox, Sofi qardaş, mən keşişdən çox qorxuram. O, qızı mənə verməк istəməyəcəkdir.
Keşiş (*çıxır*). Ey şahzadə, səndən nigaran oldum. (*Kənara*) Şahzadə çox pərişandır, burada bir hikmət vardır. (*Onlara*) Buyurun, eyş-işrətə məşğul olaq.
Sofi. Çox razıyıq. Lakin şahzadə bir qədər kefsizdir. İsfahana getməyimiz lazımdır.

Qızlar və oğlanlar hamısı buraya çıxırlar. Əsli isə qapının ağzında dayanır.

Keşiş. Buna heç bir sözüm ola bilməz. Əmr sizindir. (*Kənara*) Çıxıb getsələr yaxşıdır...
Kərəm və Sofi. Xudahafiz, salamət qalasınız. (*Hamı baş əyir.*)

(Musiqi)

Hamı (*təsnif*)

Xoş gəldin, xoş gəldin,
Xoş gəldin, şahzadə! (*2 dəfə*)
Yaşasın şahzadə, ömrü onun çox olsun! (*2 dəfə*)

Kərəm və Sofi gedirlər, Əsli özünü saxlaya bilməyib, birdən hönkür-hönkür ağlayır, hamı mat qalır.

Əsli (*segah*)

Sən məni tənha qoyub getdin, mənim canım Kərəm,
Rəhm qıl, qoyma məni hicr oduna yanım, Kərəm!
Bilmirəm ata nədir, ana nədir, əqvam nədir,
Sən mənə oldun belə candan əziz, xanım Kərəm!

K e ş i ş (*acıqla*). Qızım, qızım, bu nə işdir görürsən?

(Təsnif, musiqi ilə bir yerdə)

Yoxsa, qızım, şahzadəyə aşiqsən?
Yoxsa, qızım, şahzadəyə aşiqsən?
Bəs elə imiş, bəs elə imiş,
Onda gör səni mən necə edərəm.

Ə s l i. Bəli, mən şahzadəyə aşiqəm. (*Hamıda hərəkət*)

K e ş i ş

Get, gözümdən get! (*2 dəfə*)
Rədd ol burdan, rədd ol!
Mən səni sevməm,
Get, gözümdən get,
Get, gözümdən get,
Sən dəlisən, sən dəlisən.
Sən dəlisən, get!

(M u s i q i)

Get, get, get!..

P Ə R D Ə



## İKİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

İsfahan şəhərində, padşahın sarayında vaqe olur. Saray mümkün mərtəbədə şəşəəli döşənmişdir. Padşah taxtda əyləşibdir, əyanlar dəxi yanına düzülübdürlər. Kərəm dəxi padşahın hüzurunda ortada dayanıbdır.

P a d ş a h (*rast*)

Söylə görüm, oğlum, bu qədər ahə səbəb nə?
Gündüz, gecələr ahü fəğan, nalə, səbəb nə?
Derlər səni tərsa qızına aşiq olubsan,
Söylə görüm, oblum, bundakı dəsgahə səbəb nə?

K ə r ə m (*söz ilə*). Şah baba, izin ver ki, mən öz eşq bəlamı sizə dil ilə deyil, tel ilə qandırım. Sofi, ver mənim sazımı. (*Sofi saz gətirir.*)

P a d ş a h. Söylə, qulaq asaq!

K ə r ə m (*sazı əlinə alıb çalır*)

(M u s i q i)

Keşiş bağçasında bir gözəl gördüm,
Əqlimi başımdan aldı, nə çarə?
Daramış zülfünü, tökmüş üzünə,
Sərimi sevdayə saldı, nə çarə?

(M u s i q i)

Mən də bildim bir keşişin qızıdır,
Səhərdən çıxmış dan ulduzudur,
Yuxuda gördüyüm ol özüdür,
O, halımı bilməz isə, nə çarə?

(M u s i q i)

Dərdli Kərəm deyir firqətim qəti,
Kəskindir qılıncı, yürükdür atı.
Ol İsəvi, mən Məhəmməd hümməti,
Haqq dininə dönməz isə, nə çarə?

(M u s i q i)

P a d ş a h (*söz ilə*). Sən xəzinədarım keşişin qızına aşiqsən; burada heç bir ahü nəva etməli iş yoxdur. Sən səbir eylə, mən onun qızını alıb sənə verərəm.

Ə y a n l a r (*təsnif*)

Əlbəttə, şah buyursa, əgər buyursa, əgər əmr etsə.

(M u s i q i)

Əlbəttə, şah buyursa, əgər buyursa, əgər əmr etsə,
Keşişin sözü olmaz. (*2 dəfə*)

N ö k ə r (*daxil olur*). Padşah sağ olsun, xəzinədar keşiş hüzurunuza izin istəyir.

Ş a h. Söylə gəlsin.

Kərəm keşişin adını eşitcək müztərib hal olur və ağlayır.

Ş a h. Oğlum, nə oldu sənə, nə üçün ağlayırsan?

(M u s i q i)

K ə r ə m

Aşardı qarlı dağın ardına,
Xan Əslim əqlimə düşdü, ağlaram.
Hey ağalar, dayanamam dərdinə,
Xan Əslim əqlimə düşdü, ağlaram.

(M u s i q i)

Eşidib keşişin adını,
Xan Əslim əqlimə düşdü, ağlaram.
Duymuşam məhəbbətin dadını,
Sevdiyim xətrimə düşdü, ağlaram.

(M u s i q i)

Ş a h. Oğlum, sənin bəxtindən keşiş özü hüzuruma gəlibdir. Mən bu gün ondan nişan alaram. Sən arxayın ol.

Keşiş daxil olur, baş əyir, əlində bir dəstə açar.

Ş a h. Söylə görüm, xəzinədar, mətləbin nədir?
K e ş i ş. Padşah sağ olsun, tamam otuz ildir ki, sənin çörəyini yeyib, sənə xidmət etmişəm. İndi isə çörəyini mənə halal elə və məni qulluğumdan azad elə.
Ş a h. Keşiş, nə olubdur? Yoxsa məndən, camaatımdan incimisən?
K e ş i ş. Əstəğfürullah!.. Ancaq mən çox qocalmışam, qorxuram ki, xidmətimdə qüsur göstərəm.

Əyanlar bir-birlərinə işarə edirlər.

Ş a h. İndi ki azadlıq öz xahişindir, mənim də sözüm yoxdur. Lakin onu bil ki, bu otuzillik xidmətindən mən çox razıyam, məhşərəcən hümmətim üstündə baqi qalacaqdır. Ancaq, keşiş, sən də gərək mənim əmrimi yerinə yetirəsən.
K e ş i ş. Buyur, padşah, can və baş ilə yerinə yetirərəm. (*Kənara*) Qorxuram ki, qızımı istəyə.
Ş a h. Keşiş, mənim oğlum Əhməd Mirzə sənin qızına aşiq olubdur (*keşişdə hərəkət*), sən gərək qızını mənim oğluma verəsən.
K e ş i ş (*pərişan halda*). Padşah sağ olsun, necə ola bilər, dinimiz ayrı, adətimiz ayrı...
Ş a h. Mən sənin qızını müsəlman edərəm.



K e ş i ş (*daha da bədhal olub*). Padşah sağ olsun, hər nə ağır təklifin varsa mənə əmr et, lakin bu təklifdən vaz keç. (*Əyanlarda işarələr*)
Ş a h. Yox, keşiş, heç vaxt keçmərəm, gərək qızını mənim oğluma verəsən.
K e ş i ş (*yalvarır*). Padşah sağ olsun, buyur boynumu vursunlar, amma qızımı əlimdən alma.
Ş a h. Keşiş, gözümün ağı-qarası bir oğlum var, mən onun əza və cəfasına razı ola bilmərəm; əmr edirəm ki, qızını ona verəsən.
K e ş i ş. Padşah!..
Ş a h (*qəzəblə*). Xamuş!., Artıq söz lazım deyildir.
K e ş i ş. Padşah sağ olsun, indi ki, sənin əmrindir, razıyam. Ancaq mənə beş ay möhlət ver ki, toy tədarükü görüm.
Ş a h. Razıyam möhlətə. (*Kərəmə*) Oğlum, daha sənin ahü nəvan əbəsdir. Get, arxayın ol! (*Kərəm ağlayır.*)
Ş a h (*təəccüblə*). Oğlum, daha niyə ağlayırsan?

(M u s i q i)

K ə r ə m

İnanmıram qara keşiş sözünə,
Yox etibarım onun özünə;
Salacaqdır məni çölün düzünə,
Xan Əslim ağlıma düşdü, ağlaram.

(M u s i q i)

Uca dağ başında ötüşür quşlar,
Tərlanım uçdu kimlər görmüşlər,
Dərdimi anlamaz bunda keşişlər;
Xan Əslim ağlıma düşdü, ağlaram.

(M u s i q i)

Dərdli Kərəm deyir: bu dərdim bitməz,
Yarımın sevdası sərimdən getməz,
Yüz min öyüd ver, biri kar etməz,
Xan Əslim ağlıma düşdü, ağlaram.

(M u s i q i)

Ş a h (*ayağa durur, getmək üçün oğlunun qolundan tutur*). Oğlum! Keşiş mənə söz verəndən sonra sözündən çıxa bilməz. Beş ay dözərsən, inşallah sonra yarın sənə yetişər. İndi gəl gedək səni şikara aparım. (*Hamısı gedirlər, keşiş onları bir qədər ötürüb, sonra qayıdır.*)

(M u s i q i)

K e ş i ş

Qaçmaq, qaçmaq, (*2 dəfə*)
Qaçmaqdan başqa əlacım yoxdur. (*2 dəfə*)
Getmək, getmək,

Getməsəm əgər, əngəlim çoxdur.
(*Fikir ilə*) Olsam razı... Yox!..
Qaçmaq, qaçmaq, (*2 dəfə*)
Qaçmaqdan başqa əlacım yoxdur. (*2 dəfə*)
Qaçmaq, qaçmaq, qaçmaq,
Qaçmaq!.. (*Qaçıb gedir.*)

PƏRDƏ

## İKİNCİ ŞƏKİL

Zəngidə – keşişin bağçasında vaqe olur. Ancaq bu səfər bağçadakı güllər sınıb, solub, ağacların bəziləri qırılıbdır. Sandalyalar alt-üst olubdur. Yenə sol tərəfdə dağlıq və ortada sərv ağacı. Zəngi əhlindən Səfi adlı qoca məyus və kasıb bir bucaqda yumrulub yatıbdır. Musiqi çalınarkən səhnə açıq durur. Sonra əyanlar, qoşun, Kərəm ilə padşah kamal-dəbdəbə ilə daxil olurlar.

Ş a h (*söz ilə*). Bu nə işdir, keşiş bizim qabağımıza çıxmadı? Səsləyin keşişi!

Ə y a n l a r d a n  b i r i. Hey, hey!.. Keşiş, hey, hey!.. (*Gedir içəri baxır və çıxır.*) Şah sağ olsun, heç kəs yoxdur.

Ş a h. Bu necə olan işdir?! Yoxsa keşiş məni aldatdı, bu saat onun başını bədənindən cida etdirərəm.

Ə y a n l a r d a n  b i r i (*axtararkən Səfini görür*). Şah sağ olsun, burada bir şəxs yatıbdır.

Ş a h. Durğuzun ondan soruşaq.

Ə y a n (*Səfini oyadır*). Hey, hey, dur ayağa! (*Səfi güc ilə qalxır, gözlərini ovur.*) Dur, padşah gəlibdir. (*Səfi üzü üstə yıxılır və səcdə edir.*)

Ş a h. Ey adam, söylə, keşiş haradadır?

S ə f i. Atam-anam sənə qurban olsun, padşah! Keşiş budur üç aydır evli-eşikli bu vilayətdən qaçıbdır.

Ş a h. Ax, məlun!.. (*Fikrə gedir.*)

(M u s i q i)

K ə r ə m (*birdən başlayır, üzünü dağlara tutub oxuyur.*)

Xan Əslim Zəngidən fərar eyləmiş,
Yol verməyin, başı dumanlı dağlar!
Belə getmiş atasıyla anası,
Yol verməyin, başı dumanlı dağlar!

(M u s i q i)

İsfahan bəyləri qalxdılar toya,
Zənginin xalqı qaçdılar Xoya,
Aşiq gəldi məşuqundan doya,
Yol verməyin, başı dumanlı dağlar!

(M u s i q i)

Dərdli Kərəm bu eşq ilə bişmişdir,
Sevda ilə bu sərindən keçmişdir.



Əsli, keşiş qaçıb burdan getmişdir,
Yol verməyin, başı dumanlı dağlar!

(M u s i q i)

H a m ı (*təsnif*)

Qara keşiş, qara keşiş
Fərar etmiş Zəngidən, Zəngidən.
Ax, üç ay edər keşiş burdan sən gedən. (*2 dəfə*)

K ə r ə m

Haqdan mənə, haqdan mənə
Təqdirdir: aşiqəm, aşiqəm.
Gərəkdir olsun məndə ahü dərdü qəm. (*2 dəfə*)

H a m ı

Yolun sənin, yolun sənin
Yumrulsun a, ay keşiş, ay keşiş!
Sən necə qıydın şaha, gördün belə iş. (*2 dəfə*)

K ə r ə m (*sərv ağacına tərəf gedib oxuyur; segah*)

Dur, sərv ağacı, xəbər ver, sorayım,
Sərv ağacı, sənin maralın hanı?
Eşit gəl, eşit ver mənim cavabım,
Sərv ağacı, sənin maralın hanı?

Doğru söyləməzsən, qəddin əyilsin,
Dilərəm mövladan belin bükülsün,
Çürüsün yarpağın, şaxın qurusun,
Sərv ağacı, sənin maralın hanı?

Dərdli Kərəm deyir: yanıb tutərəm,
Yarımın yanına bu gün yetərəm;
Viran bağda bülbül olub ötərəm,
Sərv ağacı, sənin maralın hanı?

(M u s i q i)

Ş a h (*şur*). Bəsdir, oğlum, bu qədər ah-nəva bəsdir. Mən bu saat hər yerə adam göndərib keşişi tapdıraram.

K ə r ə m (*hicaz*)

Yeni bir sevdadır gəldi başıma,
Gəlin halallaşaq, mən gedər oldum.
Gəlib, ya gəlməyib sizi tapmaram,
Gəlin halallaşaq, mən gedər oldum.

(M u s i q i)

Ürəyimdə yanar bunca atəşlər,
Yar əlindən yenə yaralar işlər.
Gülüb oynadığım qızlar, qardaşlar,
Gəlin halallaşaq, mən gedər oldum.

(M u s i q i)

Duz-çörək yediyim qohum-qardaşlar,
Nədir bu fələyin etdiyi işlər,
Gözümdən axıtdı qan ilə yaşlar;
Gəlin halallaşaq, mən gedər oldum.

Ş a h (*şur*)

Oğlum, bu nə sözdür danışırsan, danışırsan?
Eşq oduna bunca alışırsan, alışırsan?
Tərsa qızına aşiq olub bunca uyursan?
Mən tək qocanı didəsi giryan qoyursan.
Ölsəm, oğlum, bu hökumət kimə qalsın?
Kim şahlıq edib dövlətin əhvalına yansın?

K ə r ə m

Məndən, ata, padşahlıq uyma, uyma,
Mən aşiqi gəl gözü yaşlı qoyma.
Haqq aşiqi olmuşam, yəqin bil,
Qoy yarımı axtarım tapım, bil.

(M u s i q i)

H a m ı (*təsnif*)

İzn verin getsin, şahım, bu Kərəm (*2 dəfə*)
Getsin yarın tapsın, alsın o məram. (*2 dəfə*)
Sənin oğlun, şahım,
Həqdən aşiqdir, aşiqdir, aşiqdir.
Eşqə düşmək, şahım, ona layiqdir,
Layiqdir, layiqdir.

(M u s i q i)

Padşah üzünü dəsmal ilə tutub ağlayır.

(M u s i q i)

K ə r ə m

Qəm-qəsavət bu gün başa düzüldü,
Ağla, atam, ayrılığın günüdür.



Bizə qismət qürbət eldə verildi,
Ağla, atam, ayrılığın günüdür.

(M u s i q i)

Məni kül eylədi elin dilləri,
Bundan belə gözləməyin yolları.
Varayım, gəzəyim qürbət elləri,
Ağla, atam, ayrılığın günüdür.

(M u s i q i)

Məni, ata, halal eylə, gedirəm,
Bir tənbehdir öz-özümə edirəm.
Əslidən başqa özgəni nedirəm?
Ağla, atam, ayrılığın günüdür, hey!.. (*Gedir.*)

P Ə R D Ə

## ÜÇÜNCÜ PƏRDƏ

Bir çöldə vaqe olur, çöldə ora-bura yollar vardır. Sol tərəfdə meşədir, sağ tərəf dağlıqdır. Səhnədə Kərəmlə Sofi dayanıbdır. Musiqi çalınır.

Kərəm (*üzünü yollara tutub deyir*)

Əyri-üyrü gedən yollar,
Yollar, xan Əslimi gördünmü?
Düşmüşəm yarın izinə,
İzlər, xan Əslimi gördünmü?

Əyninə geyibdir saya,
Yanında var cüftə taya,
Sənə deyirəm, sarı qaya!
Qaya, xan Əslimi gördünmü?

Bir dəstə yol ötən gəlib keçərkən bunları görüb dayanır.

Kərəm

Düşmüşəm yarın izinə,
Qurban olum onun qara gözünə;
Çıxmışam mən çöllərin düzünə,
Düzlər, xan Əslimi gördünmü?

Yol ötənlər (*təsnif-tar*)

Nə gəzirsən burada,
Nədir, nədir, nədirsiz? } (*2 dəfə*)
Nərəyədir səfəriz,
Gedir, gedir, gedirsiz?
Gedir, gedir, gedirsiz?
Səbəb nədir bu ahə,
Edir, edir, edirsiz? } (*2 dəfə*)
Nərəyədir səfəriz,
Gedir, gedir, gedirsiz?
Gedir, gedir, gedirsiz?

Sofi. Ay qardaşlar, bu oğlan haqq aşiqi Kərəmdir. Neçə zamandır keşiş qızı Əsli xana aşiqdir, amma keşiş öz qızını götürüb qaçıbdır, indi bu da yarın axtara-axtara neçə-neçə vilayətlər keçib, gəlib bu yerə çatıbdır. Hərgah siz də keşişin qaçmağını bilirsinizsə, bizə xəbər veriniz.

Yol ötənlərdən biri. Ey aşiq! Sənin yarının haraya qaçırıldığını bilirik. Hərgah bizim üçün bir türkü oxusan, xəbər verərik.

Kərəm sazını əlinə alır və yol ötənlər oturub qulaq asırlar.

(Musiqi)



Kərəm

Hey... ağalar, yarımı qaçırdım,
Bəylər, xan Əslimi gördünmü?
Bülbülü şaxdan uçurdum,
Bəylər, xan Əslimi gördünmü?

(Musiqi)

Əsli huridir bilənə,
Qoynu cənnətdir girənə.
Ceyrana bənzər, ceyrana.
Bəylər, xan Əslimi gördünmü?

(Musiqi)

Obaları oymaq-oymaq,
Olmaz imiş yardan doymaq.
Ağzı süd, dodağı qaymaq,
Bəylər, xan Əslimi gördünmü?!

(Musiqi)

Mən Kərəməm, düşüb çölə gəzərəm,
Yarımı tapsam, üst-başını bəzərəm,
Min cür cəfa etsə, mininə dözərəm,
Bəylər, xan Əslimi gördünmü, hey?!

Yol ötənlərdən biri. Doğrudan da ki sən haqq aşiqi imişsən. Ey aşiq, sənin yarın atası ilə bərabər buradan keçib, Hələb şəhərinə qaçıblar. Onu orada taparsan, amma, ey aşiq, sən gəl burax Əslini, qal bizim ellərdə.

O biri. Ol bizim əhlimizdən.

Digəri. Bizdə Əslidən gözəl qızlar vardır.

Bir ayrısı. O qızlardan birini al.

Hamısı. Gəl, gəl, aşiq, bizdə qal.

Kərəm (*baş bulayır*). Ay qardaşlar! Mən İsfahan padşahının oğluyam, hərgah bir yerdə qalıb rahat ola bilsə idim, padşah sarayında qalıb, şahlıq edərdim. Mən haqq aşiqiyəm, yarımdan əl çəkə bilmərəm.

Bu halda bir dəstə qız gəlir, qızlardan biri oynayıb, qalanları oxuyurlar.

(Musiqi)

Qızlar

Güli-sünbüllər açılıb bağda,
Açılıb bağda güli-sünbüllər.
Hamı bülbüllər oxuyur bağda,
Oxuyur bağda hamı bülbüllər. (*2 dəfə*)

(Oyun, musiqi)

Düzülün, qızlar, əl-ələ verin,
Əl-ələ verin, düzülün, qızlar!
Görəsiz, qızlar, neçə bayramlar!
Neçə bayramlar görəsiz, qızlar! (*2 dəfə*)

Oğlanlar və qızlar

Yığışın, qızlar, həmi oğlanlar,
Gülüşüb danışaq,
Görüşək, danışaq.
Gülə bənzərsiz hərəniz, qızlar,
Sizə aşiqdir hamı oğlanlar! (*2 dəfə*)

(Oyun, musiqi)

Kərəm

Mən Kərəməm, düşüb çölə gəzərəm,
Xan Əslimi sizdən görən oldumu?
Bir dayanın, sizdən onu sorayım,
Xan Əslimi sizdən görən oldumu?

(Musiqi)

Mənim yurdum dağlar ilə daş olub,
Məhəbbət sirri hər kəsə faş olub,
Ağlamaqdan yerim-yurdum yaş olub,
Xan Əslimi sizdən görən oldumu?

(Musiqi)

Ah edəyim, könül, sənin əlindən,
Qaldıq bir əcaib zarın içində.
Nəyə ağlayım, nəyə güləyim?
Qönçə gülüm qaldı xarın içində.

(Musiqi)

Dərdli Kərəm deyir: vətənim yox mənim,
Heç kimsə yoxdur sora əhvalım.
Yardan ayrılalı büküldü belim,
Qaldıq namus ilə arın içində.

(Musiqi)

Hamı (*təsnif*)

Dərdli Kərəm, sən itirdin Əslini; (*2 dəfə*)
Get tap, get tap yarın, itirdin Əslini. (*2 dəfə*)
Haqdan aşiqsən, çək eşqin əzabın; (*2 dəfə*)
Get tap, get tap yarın, itirdin Əslini. (*2 dəfə*)



Qızlar və oğlanlar gedirlər.

Kərəm (*yollara sarı*)

Ərzurumdan çıxdım, üç oldu yolum,
Mən bu yolun hankısına gedəyim?
Gecə-gündüz çağırıram mövlanı,
Mən bu yolun hankısına gedəyim?

(Musiqi)

Sofi qardaş, necə olur halımız?
İsfahan şəhridir bizim elimiz.
Bülbül getdi, məhzun qaldı gülümüz,
Mən bu yolun hankısına gedəyim?

(Musiqi)

Kərəm deyir yetmədim muradıma,
Əslim getdi, qonamadım yurduna.
Hey ağalar, bir dilbərin dərdinə,
Mən bu yolun hankısına gedəyim?

(Musiqi)

Bu halda Şeyx-Nurani vaqe olur və üzünü Kərəmgilə tutub oxuyur.

Şeyx-Nurani (*humayun*)

Eşqə giriftar olanı
Zarü pərişan gördüm.

(Musiqi)

(*təkrar o sözlər*)
Cəng edib, can alanı
Qanını qəltan gördüm.

(Musiqi)

(*təkrar o sözlər*)
Atəşi-eşqə düşəni
Çaki-giriban gördüm.

(Musiqi)

(*təkrar o sözlər*)
Hicr oduna yananı
Qəlbini büryan gördüm.

(M u s i q i)

*(təkrar)*

Ş e y x (*söz ilə*). Ey qəriblər, siz haraya getmək istəyirsiniz?
S o f i. Ey Şeyx, biz Hələb şəhərinə getmək istəyirik.
Ş e y x. Siz bilirsinizmi ki, buradan Hələbə altı aylıq yol var?
S o f i. Xeyr, bilmirik.
Ş e y x. Yumun gözlərinizi.

Kərəm və Sofi gözlərini yumurlar, haman dəm hər yerdə qaranlıq olur, bu halda səhnənin dal pərdəsi qalxır, Hələb şəhəri görünür.

Ş e y x. Açın gözlərinizi.

Bunlar gözlərini açırlar, hər yer işıqlanır. Kərəm və Sofi Hələbin mənzərəsini görüb şad olurlar.

Ş e y x. Bax, siz Hələb şəhərinə yetişdiniz. (*Deyib tez çıxıb gedir.*)

(M u s i q i)

K ə r ə m

Şükr eylə, Sofi, xudaya, (*2 dəfə*)
Hələb şəhri, Hələb şəhri!
Hələb şəhrinə gəldik.

(M u s i q i)

Qalxız əlini duaya, (*2 dəfə*)
Hələb şəhri, Hələb şəhri!
Hələb şəhrinə gəldik.

(M u s i q i)

K ə r ə m v ə S o f i

Yetirdi mövlam bizi tez, (*2 dəfə*)
Hələb şəhri, Hələb şəhri!
Hələb şəhrinə gəldik (*2 dəfə*)
Hey...

(M u s i q i)

P Ə R D Ə



## DÖRDÜNCÜ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Hələb şəhərinin bazarında vaqe olur. Axşam çağıdır, sağ tərəfdə sair evlər var. Sol tərəfdə Keşiş və Əsli olan ikimərtəbə və eyvanlı ev vardır. Ortada çeşmə qurulub, altı nəfər qız su doldurmaqla məşğuldur, evlərin içindən işıq gəlir. Qızlar su doldurur və oxuyurlar.

(M u s i q i)

Q ı z l a r

Axşam oldu hey... şamlar yandı, (*2 dəfə*)
Tez ol, tez ol, qızlar, qaranlıq damdı. (*2 dəfə*)
Hər kim, istər kim dərdi az olsun, (*2 dəfə*)
Getməsin ərə, evdə qız qalsın. (*2 dəfə*)

(M u s i q i)

Axşam oldu hey... obalar yatdı, (*2 dəfə*)
Qaranlıq çökdü, ay da həm batdı; (*2 dəfə*)
Arvad olanın dərdi çoxdur, (*2 dəfə*)
Amma qızların heç dərdi yoxdur. (*2 dəfə*)
Amma qızların heç dərdi yoxdur. (*2 dəfə*)

Bu halda Kərəm ilə Sofi sağ tərəfdən nümayan olurlar, qızlar onları görüb qorxan kimi olurlar.

(M u s i q i)

K ə r ə m

Ey Hələbin gözəlləri,
Gözəl qızlar, gözəl qızlar!
Bulaqdan su süzənləri,
Gözəl qızlar, gözəl qızlar!

(M u s i q i)

Keşiş bunda gəlib durar,
Xan Əslimi döyər, vurar,
Dərdli Kərəm sizdən sorar,
Gözəl qızlar, gözəl qızlar!

(M u s i q i)

Q ı z l a r d a n b i r i. Siz kimsiniz və bizlərdən nə istəyirsiniz?
S o f i. Ey gözəl qızlar, sizin bu şəhərə bir keşiş gəlib, öz qızı ilə olur, söyləyin bizə, Allah eşqinə, o keşiş harada olur?
Q ı z l a r d a n b i r i. Bildim hansı keşişdir, bax, o keşiş bu evdə olur, bu evdə. (*Qızlar gedirlər.*)

(M u s i q i)

K ə r ə m (*sevinib*)

Gəzib-gəzib şəhərləri, kəndləri,
Axır gəlib sənə yetişdim, Əsli!
Unutmuşam cəfaları, dərdləri,
Axır gəlib sənə yetişdim, Əsli!

(M u s i q i)

Haqq aşiqi söylədilər adıma,
Yetişmədi bir kəs mənim dadıma.
Keçən günlər düşdü mənim yadıma,
Axır gəlib sənə yetişdim, Əsli!

(M u s i q i)

Şah oğluyam, dönmüşəm mən gədayə,
Çıx gəl bəri, verək sədа-sədayə,
Dərdli Kərəm desin şükür xudayə,
Axır gəlib sənə yetişdim, Əsli!

Bu halda eyvana açılan qapılar taybatay açılıb, Əsli hövlnak bir surətdə eyvana çıxır və aşağı baxıb deyir:

Ə s l i. Kərəm!!!
K ə r ə m. Can Əsli!

Əsli bihuş kimi olur.

(M u s i q i)

K ə r ə m

Gəzib-gəzib şəhərləri, kəndləri,
Axır gəlib sənə yetişdim, Əsli!
Unutmuşam cəfaları, dərdləri,
Axır gəlib sənə yetişdim, Əsli!

(M u s i q i)

Ə s l i

Dustaq kimi gəlib qalıb bu evdə,
Söylər idim: Kərəm, Kərəm, Kərəm, gəl!
Bilməz idim çarə nədir bu dərdə,
Söylər idim: Kərəm, Kərəm, Kərəm, gəl!

(M u s i q i)

K ə r ə m

Ağlar qoyub ata ilə ananı,
İncitmişəm hər bir canı yananı.



Ötürmüşəm Məcnunu və Sənanı,
Axır gəlib sənə yetişdim, Əsli!

(M u s i q i)

Ə s l i

Keşiş babam məni döyüb söyəndə,
Qaçar ikən o kənddən bu kəndə,
Ahu kimi düşüb qalıb kəməndə,
Söylər idim: Kərəm, Kərəm, Kərəm, gəl!

(M u s i q i)

K ə r ə m

Şah oğluyam, dönmüşəm mən gədayə,
Çıx gəl bəri, verək sədа-sədayə,
Dərdli Kərəm desin şükür Xudayə,
Axır gəlib sənə yetişdim, Əsli!

(M u s i q i)

Ə s l i

Keşiş babam bağlayıbdır hər yanı,
Yanmaz imiş onun mənə heç canı.
Gözüm görmür bu işıqlı dünyanı,
Çıx gəl bəri, Kərəm, Kərəm, Kərəm, gəl!

– deyib, ipək nərdivanı aşağı atır, Kərəm nərdivana çıxıb, Əsli dəxi eyvandan bədənini aşağı sallayıb, ikisi bir-biri ilə görüşməkdə ikən keşiş bazardan qayıdır və əhvalatı bu halda görüb qışqırır.

K e ş i ş. Ay haray!.. Evimə oğru gəlibdir, ay haray!.. Yığılın buraya!

Bu qışqırığa iki nəfər zəbtiyyə gəlib Kərəmi və Sofini tuturlar, camaat dəxi evlərindən bayıra çıxıb, əllərində fanus olaraq bu əhvalatı görürlər.

B ə z i l ə r i. Nə olub? Nə olub?
O b i r i l ə r i. Keşişin evinə oğru-quldur gəlibdir.

Xalq kamal-təəccüblə Kərəm ilə Sofinin ora-burasına tamaşa edir.

K e ş i ş (*kənara çəkilib*). Ax-ax-ax... Tanıdım, odur, padşahın oğlu Əhməd Mirzədir... Yenə gəlib məni tapdı, ax!..

Bu halda Hələb paşası daxil olur, yanında iki nəfər zəbtiyyə.

P a ş a. Bu nə yığıncaqdır burada? Nə olubdur? Geri çəkilin!

Camaat çəkilir.

K e ş i ş. Paşam! Bu iki şəxs mənim evimi yarmaq istərkən gəlib üstə çıxmışam.

P a ş a (*acıqla*). Nakəslər! Bu şəhəri sahibsizmi zənn etdiniz? Nə cürət edib quldurluğa gəlirsiniz? Aparın bunları həbs edin!

K ə r ə m (*əcz ilə*). Paşam, izin ver, bir neçə kəlmə sözüm var.

P a ş a. Nə sözdür, de görək.

(M u s i q i)

K ə r ə m

Yazıq ömrüm qərib eldə keçirdim,
Heç əhvalım bildirən yox, bilən yox!
Getdi fürsət, əldə ikən qaçırdım,
Qərib qaldım, güldürən yox, gülən yox!

(M u s i q i)

Əlimdən aldırdım nazlı sonamı,
Tərk eylədim atamı, həm anamı,
Döyə-döyə gömgöy etdim sinəmi,
Xəncər alıb dəldirən yox, dələn yox!

(M u s i q i)

Mən Kərəməm, ah çəkib, ağlaram,
Dərd bilənin ürəyini dağlaram.
Kimi deyib, kimə ümid bağlaram.
Göz yaşımı sildirən yox, silən yox!

İndi buyur məni aparsınlar, həbs etsinlər.

P Ə R D Ə

### İKİNCİ ŞƏKİL

Hələb paşasının imarətində vaqe olur. Paşa bir taxt üzərində əyləşib, meypuş qəlyan çəkir. Onun qabağında bir neçə qız oynayır. Bir qədərdən sonra nökər daxil olur, qızlar oyunu kəsib, bir kənarda dayanırlar.

N ö k ə r. Paşam, bir dəstə camaat hüzurunuza izin istəyir.

P a ş a. Burax gəlsinlər.

Camaat və Şeyx Nurani daxil olurlar.

(M u s i q i)

C a m a a t (*təsnif*)

Ey paşam, ey paşam,
Kərəmi et azad.
Ey paşam, ey paşam,
Kərəmi et azad, azad et.



Aşiq olmuş keşiş qızına, } (*2 dəfə*)
Aşiq olmuş keşiş qızına. }
Ol aşiqdir!

P a ş a (*şur ilə*). Əmr olunsun, gedib dünənki məhbusu buraya gətirsinlər.

Ş e y x  N u r a n i (*Osmanlı üstə*)

Aşiqə etmə əziyyət, ey paşam,
Aşiqin üftadədir, üftadədir, üftadədir.
İstəsə aşiq əgər öz canını,
Yar üçün qurban edə, amadədir.

C a m a a t

Aşiq olmuş keşiş qızına, } (*2 dəfə*)
Aşiq olmuş keşiş qızına. }
Ol aşiqdir.

Ş e y x (*yenə təkrar həman sözlər başqa tərkib musiqi ilə*)

Kuhkəm nəqşin çəkib, Şirinə vermiş bir fərib,
Gör nə cahildir, yonar daşdan özünə bir rəqib.

C a m a a t

Aşiq olmuş keşiş qızına, } (*2 dəfə*)
Aşiq olmuş keşiş qızına. }
Ol aşiqdir.

Oxuyub gedir. Kərəmi gətirirlər, əllərində zəncir vardır.

P a ş a (*söz ilə*). Ey şəxs, sən kimsən və nəçisən? Söylə!

(M u s i q i)

K ə r ə m

Mən Kərəməm, İsfahandır elimiz,
Ördək uçdu, viran qaldı gölümüz.
Qoy olsun, necə olur halımız,
Qurban olsun yar yolunda canımız.

(M u s i q i)

Ayrı düşdüm vətənimdən, elimdən,
Gör kim, nələr çəkdim eşqin əlindən.
Hər şəhərdə xəbər aldım gələndən,
Hələbdədir Əsli, – mənə dedilər.

(M u s i q i)

Dərdimi duyanlar cümlə ağladı,
Bəylər tutdu qollarımı bağladı,
Ürəyimi eşq oduna dağladı,
Burda mənə quldur adı verdilər.

(M u s i q i)

Yandı ciyərciyim döndü büryana,
Axdı çeşmim yaşı döndü ümmana.
Gətirdilər məni ulu divana,
Bağladılar ayağımı, əlimi.

(M u s i q i)

Dərdli Kərəm qoydu başın qəzaya,
Yar ilə getmədi xəlvət odaya.
Çox şükürlər olsun barı-xudaya,
Kəsmədilər ağzımdakı dilimi.

P a ş a. Ey oğlan, sən keşişin qızına aşiqsən və adın Kərəmdir. Özün də İsfahan padşahının oğlusan, öylədirmi?

K ə r ə m. Öylədir, paşam.

P a ş a. Əmr edirəm, keşiş və qızı buraya gəlsinlər. (*Nökər gedir.*) Açın Kərəmin əlin. (*Açırlar.*) Aşiq Kərəm, sən gəl keşiş qızından əl çək, mən sənə bu şəhərdə hansı gözəli desən alaram.

K ə r ə m. Paşam, bizim vilayətimizdə gözəllər çox idi, lakin mən ürək sevəni istəyirəm, başqa məramım yoxdur.

P a ş a. Ya istərsən gəl səni vətənə göndərim get.

K ə r ə m. Vətən mənə Əslidən əziz olsaydı, onu buraxıb bunun dalınca düşməzdim.

Bu halda keşiş və Əsli daxil olurlar. Əsli və Kərəm bir-birini görcək bihuş olurlar.

P a ş a. Keşiş, bu oğlan quldur deyilmiş, bu sənin qızına aşiqdir. Sən gəl qızı ver ona, rəhm elə! Mən sənə nə qədər desən dövlət verərəm.

K e ş i ş. Paşam, əgər mən dövlət sevən olsaydım, İsfahan padşahının sözünü rədd etməzdim. Mən öz qızımı, qızımın namusunu hər şeydən əziz tuturam.

P a ş a. Sən bilirsən ki, bu oğlan sənin qızının aşiqidir.

K e ş i ş. Bilirəm.

P a ş a. Və bilirsən ki, qızın buna aşiqdir.

K e ş i ş. Bilirəm.

P a ş a. Və bilirsən ki, iki aşiqi mərama çatdırmaq nə qədər savabdır?!

K e ş i ş. Bilirəm.

P a ş a. Bəs nə üçün mane olursan?

K e ş i ş. O mənim atalıq haqqımdır.

P a ş a. Keşiş, sən gəl bu işə razı ol, yoxsa...

K e ş i ş. Paşam, İran vilayətində mənim hörmətim padşah hörmətinə bərabər idi, amma mən yenə də oradan qaçıb, sənin şəhərinə gəldim və sənin kölgənə qısıldım, hərgah sən də məni incitmək istəsən, özgə bir şəhər hakiminə pənah apararam.

P a ş a (*Kərəmə*). Ey oğlan, sən müsəlmansan, bu erməni qızı, sən gəl bundan əl çək, get özünə özgə bir qismət axtar.

(M u s i q i)



K ə r ə m

Hey ağalar, necə edim,
Mən dönərəm, könül dönməz.
Əsliyədir mənim könlüm,
Mən dönərəm, könül dönməz.

(M u s i q i)

Kəklik kimi səkişindən,
Köküs əlvan naxışından,
Bir hərami baxışından,
Mən dönərəm, könül dönməz.

(M u s i q i)

İstəmirəm başqa özündən,
Mənə söylə Əsli sözündən.
Əsli kimi keşiş qızından,
Kərəm sevdi Əsli xanı.
Mən dönərəm, könül dönməz.

(M u s i q i)

Yoluna qoymuşam canı,
Gözümdən axıtdı qanı,
Mən dönərəm, könül dönməz.

(M u s i q i)

P a ş a. Ax!.. Qoy indi bir qızdan soruşum, hərgah qız sənin yanında oğlana getmək istəsə, o halda, keşiş, gərək heç bir sözün olmasın. Olsa da sənə cəza elətdirərəm. Ey qız, söylə görüm, sən Kərəmə aşiqsənmi və Kərəmə ərə getmək istəyirsənmi?

(M u s i q i)

Ə s l i

Kərəm mənə, mən Kərəmə aşiqik,
Ver Kərəmə məni, paşam, rəhm elə.
Hər ikimiz aşiqliyə layiqik,
Ver Kərəmə məni, paşam, rəhm elə.

(M u s i q i)

İllər ilə həsrətini çəkirdim,
Gizli-gizli qan-yaşımı tökürdüm,
İkiəlli bir başıma döyürdüm,
Ver Kərəmə məni, paşam, rəhm elə.

(M u s i q i)

Qorxum yoxdur keşiş babamdan mənim,
Dözə bilməm, təngə gəlibdir canım.

Mənim yarım ancaq Kərəmdir, Kərəm,
Ver Kərəmə məni, paşam, rəhm elə.

(M u s i q i)

H a m ı (*musiqi: təsnif*). Keşiş, razı ol bu işə!

K e ş i ş. Olmam, olmam.

C a m a a t. Keşiş, razı ol bu işə.

P a ş a. Razı ol, razı ol. (*Deyib, qılıncı sivirmək istəyir.*)

C a m a a t. Əslini ver Kərəmə.

K e ş i ş. Verməm, verməm.

C a m a a t. Əslini ver Kərəmə.

P a ş a. Razı ol, razı ol. (*Deyib, qılıncı sivirir və keşişin üstünə qalxır.*)

K e ş i ş. Olmam, olmam, olmam!.. (*Söz ilə birdən*) Ver, ver, ver Əslini Kərəmə! Əmma hərgah bunlar həqiqi aşiqdirlərsə, gərək bu dünyada kam almasınlar! Almasınlar! Almasınlar! (*Deyib, çıxıb gedir.*)

P a ş a (*Kərəmə*). Al oğlan, öz yarını apar!

Əsli ağlayır, Kərəm hövlnak bir haldadır ki, guya canı odlanır. Əsliyə tərəf əllərini uzadıb oxuyur.

(M u s i q i)

K ə r ə m

Gəl, gəl, Əslim, yetər, ağlama,
Yanaram, Əslim, yanaram!
Ciyərim artıq dağlama,
Yanaram, Əslim, yanaram, hey!..

Rəhm elə, bir gəl halıma,
Atəş düşübdür canıma,
Öləndə gəl məzarıma,
Yanaram, Əslim, yanaram, hey!..

Mən Kərəməm, haqq aşiqiyəm,
Aşiqliyə mən layiqəm.
Rəhm eylə tez, mən yazığam,
Yanaram, Əslim, yanaram!

Kərəm söyləməz adım,
Ərşə dayandı fəryadım.
Əldən getdi muradım,
Yanaram, Əslim, yanaram!

Yanaram, yanaram, Əslim, yanaram, hey!..

(M u s i q i)

– deyərkən hər tərəfdən alov çıxıb, odlanıb yanır. Əsli də əlindəki xəncərini çıxarıb, sinəsinə çaxır və yıxılıb ölür. Bütün məclis əhli mat və məəttəl qalıb, kəmali-heyrətdə ikən pərdə yavaş-yavaş enir.

P Ə R D Ə

## MÜNDƏRİCAT

Redaktordan .......... 4
Ön söz .......... 5

Uvertüra .......... 11

BİRİNCİ PƏRDƏ
1-ci şəkil .......... 23

İKİNCİ PƏRDƏ
2-ci şəkil .......... 70
3-cü şəkil .......... 102

ÜÇÜNCÜ PƏRDƏ
4-cü şəkil .......... 130

DÖRDÜNCÜ PƏRDƏ
5-ci şəkil .......... 168
6-cı şəkil .......... 198

Libretto .......... 231

Layihənin koordinatoru və musiqi redaktoru:
*Xalq artisti, professor*
***Firəngiz Əlizadə***

Kompüter not qrafikası və korrektor:
***Firudin Allahverdi***

Buraxılışa məsul: *Əziz Güləliyev*
Kompüter səhifələyicisi: *Samir Bayramov*

Çapa imzalanmışdır 24.12.2010. Formatı 60x84 1/8. Fiziki çap vərəqi 32,5.
Ofset çap üsulu. Tirajı 1000. Sifariş 412.

"Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.
Bakı şəhəri, Aşıq Ələsgər küçəsi, 17.

Ar 2010/2563

1102